Caspian Audit
ADDRESS: Sh.Azizbekov str. 95 Baku, Azerbaijan
TELEPHONE: (994 12) 561-38-80/85
FAX: (994 12) 562-90-43
MOB.: (+99450) 220-09-84
(+99470) 220-09-84
EMAIL: caspian.audit@gmail.com

# AUDİTOR RƏYİ

## SERIYA KAK № 00145

**«KASPİAN AUDİT KOMPANİ» MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ**

**AUDİTOR RƏYİ**

**" PAŞA SIĞORTA " AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**

Mən, Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən verilmiş AT/064 qeydiyyat №-li 06 fevral 2012-ci il tarixli 047469 saylı lisenziyaya əsasən fəaliyyət göstərən «Kaspian Audit Kompani» Məhdud Məsuliyyətli Cəmiyyətinin auditoru Əlibala Səttar oğlu Məhərrəmzadə «16» fevral 2015-ci il tarixli 0120 №-li AK seriyalı müqaviləyə əsasən "PAŞA SIĞORTA " AÇIQ SƏHMDAR CƏMİYYƏTİNƏ məxsus olan 01.01.2014-ci il tarixindən 01.01.2015-ci il tarixədək maliyyə-təsərrüfat fəaliyyətini əks etdirən rəyə əlavə edilən maliyyə hesabatlarının auditor yoxlamasını aparmışam.

Yoxlama «16» fevral 2015-ci il tarixdə başlayıb, «26» fevral 2015-ci il tarixdə başa çatıb.

Auditor yoxlamasına təqdim edilmiş sənədlərin düzgünlüyünə sifarişçi-təsərrüfat subyektinin rəhbərliyi məsuliyyət daşıyır. Bizim vəzifəmiz həmin sənədlərə əsasən aparılmış yoxlama nəticəsində sifarişçinin maliyyə-təsərrüfat əməliyyatlarının qanuniliyinə, illik mühasibat hesabatları maddələrinin doğruluğuna qiymət verməkdir və biz yalnız bu rəydə əks olunmuş mülahizələrimizə görə məsuliyyət daşıyırıq.

Mülahizələri düzgün formalaşdırmaq üçün kifayət qədər auditor sübutlarının toplanması məqsədilə biz qüvvədə olan audit standartlarının tələblərinə uyğun olaraq auditi planlaşdırmış və audit prosedurlarını yerinə yetirmişik.

Audit zamanı təsdiq olunmuş sənədlərdə əsas kimi götürülmüş təsdiqedici materiallar yoxlanılmış, habelə sifarişçi təsərrüfat subyektinin tətbiq etdiyi uçot prinsipləri qiymətləndirilmişdir.

Hesab edirik ki, yerinə yetirilmiş audit prosedurları nəticəsində rəy vermək üçün kifayət qədər auditor sübutları toplamışıq.

Qulluq borcumuzla əlaqədar apardığım yoxlama ilə müəyyənləşdirilmişdir ki, mühasibat uçotu və illik balans qanuni göstərişlərə və nizamnamənin müddəalarına uyğundur. Lazımi mühasibat uçotu baxımından illik balans hüquqi şəxsin əmlak, maliyyə vəziyyətinin və gəlirliyinin faktik münasibətlərə uyğun olan mənzərəsini yaradır.

Rəy «26» fevral 2015-ci il tarixində eyni qüvvəyə malik iki nüsxədə tərtib edilmişdir. Bunlardan biri sifarşçi təsərrüfat subyektində, ikinci isə auditor şirkətində saxlanılır.

«Kaspian Audit Kompani» MMC-nin ünvanı: Bakı ş. M.Muxtarov 9/30.

**«Kaspian Audit Kompani»**
**MMC-nin direktoru** Məhərrəmzadə Ə.S.

AZƏRBAYCAN RESPUBLİKASI «Kaspian Audit Kompani» MMC
CASPIAN AUDIT COMPANY
Limited Liability Company AZERBAIJAN REPUBLIC